1_Layout 1 29.11.2021 9:42 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 22 (612)

30 noyabr 2021-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


## TÜRK DÜNYASINDAN AZƏRBAYCANIN MÖHTƏŞƏM QƏLƏBƏSİNƏ LAYİQLİ DƏYƏR

**"Azərbaycan" qəzetinin müxbiri Bahadur İmanquliyevin müəllifi olduğu "Türk dünyasından Azərbaycanın möhtəşəm qələbəsinə layiqli dəyər" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq, ixtisarla oxucularımıza təqdim edirik.**

İstanbuldakı Demokratiya və Azadlıq Adasından, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündən Azərbaycana nəzər salmaq, onun uğurlarına və əldə etdiyi nailiyyətlərə qardaş dövlətlərin gözü ilə baxmaq bu gün xüsusi əhəmiyyət kəsb edir.

Postmüharibə dövründə möhtəşəm qələbənin birillik yubileyini qeyd edən dövlətimiz uzaqdan, türkdilli dövlətlərin baxış bucağından necə görünür? Hərbi və iqtisadi uğurlarımız qardaş ölkələrin mizan-tərəzisində hansı xüsusi çəkiyə malikdir? Yəni bəzən bir dövlətin daxilində baş verənləri anlamaq üçün ona bir qədər kənardan baxmaq da faydalıdır.

Bizim üçün bu gün ən vacibi möhtəşəm zəfərin uzaqdan seyr edilməsidir. Amma onu xatırlayaq ki, azğın Ermənistan ordusu üzərində çaldığımız qələbədən bir il ötməsinə baxmayaraq, bu gün də dünyanın bütün aparıcı dövlətləri və tanınmış ekspertləri tərəfindən 44 günlük müharibənin təfərrüatları dərindən öyrənilir, araşdırılır və hətta NATO qoşunlarının tərkibində belə yeni islahatların aparılması təklifləri irəli sürülür. Dünya düzəninə yeni qoşulan Azərbaycan kimi gənc dövlətin çaldığı qələbədən sonra supergüclər və onların hərbi qurumları artıq daha müasir ordu quruculuğunun aparılmasının zəruriliyini vurğulayır və bu istiqamətlərdə ciddi tədbirlər həyata keçirirlər.

Bu barədə çox yazılıb, amma deyilməyən odur ki, Azərbaycan kimi işğaldan 30 il əziyyət çəkən dövlətin 44 günə düşməni darmadağın etməsi inanılmaz və bütün dünyanı heyrətə gətirən yenilikdir. Biz Ali Baş Komandanın dünyada heç vaxt tətbiq edilməyən uğurlu yeni hərbi strategiya və taktikasının çaldığı şəksiz və unikal qələbənin şahidi olduq. Azərbaycan əsgərinin misilsiz rəşadətinin erməniləri necə dəhşətə gətirdiyini, raket və bomba atəşlərinə məruz qalan dinc əhalinin isə necə direniş göstərib evlərini tərk etmədiyini gördük. Xalq və iqtidar birliyi, Ali Baş Komandan və şəxsən onun uzun illər ərzində qurduğu möhtəşəm ordu düşmənin başına dəmir yumruq kimi çırpıldı və onu əbədi iflic etdi. Bu, bizim ölkə daxilində qələbəyə verdiyimiz qiymətdir.

VIII Zirvə görüşündə Prezident İlham Əliyevə Türk Dünyasının Ali Ordeni təqdim edilərkən əzəmətli qələbəmizin türkdilli dövlətlər tərəfindən təsəvvür etdiyimizdən dəfələrlə yüksək qiymətləndirilməsinin şahidi olduq. Bununla bağlı qərarda deyilir: "Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Zati-aliləri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının ərazilərinin işğaldan azad edilməsini və ərazi bütövlüyünün bərpasını təmin edərək türk birliyinə mühüm töhfə verən və bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan tarixi qələbəyə görə Dövlət Başçıları Şurası Türkiyə Respublikasının Prezidenti Zati-aliləri Rəcəb Tayyib Ərdoğanın təklifi ilə Zati-aliləri İlham Əliyevin böyük şərəflə "Türk Dünyasının Ali Ordeni ilə təltif edilməsi haqqında" qərar qəbul etmişdir".



Qazaxıstan, Qırğız, Türkiyə və Özbəkistan respublikalarının prezidentlərinin imzaladıqları bu sənəd bütün Türk dünyası üçün qələbənin necə böyük önəm daşıdığını, necə qürur doğurduğunu, Azərbaycanın Türk dünyasının parlayan ulduzuna çevrildiyini təsdiq edir. Ən başlıcası odur ki, Prezident İlham Əliyev öz adını qızıl hərflərlə türkdilli dövlətlərin hərb tarixinə həkk etdi.

Ərdoğan bu qələbəni belə qiymətləndirmişdir: "Qarabağ Zəfəri ilə təkcə işğal altındakı torpaqlar azad edilməyib, eyni zamanda, bölgəmizdə həsrətini çəkdiyimiz davamlı sülh, sabitlik və əməkdaşlığa gedən yolun da önü açılıb".

İstanbuldan Azərbaycanın hərbi qüdrətinin və danılmaz qələbəsinin Türk dünyasının qürur mənbəyinə çevrilməsi aydın sezilir. Sevindirici hal odur ki, zirvə görüşündə Azərbaycanın hərbi uğurları bütün Türk dünyasının qələbəsi kimi təqdim edildi.

Prezident İlham Əliyev çıxışında ona təqdim edilən yüksək mükafata görə dərin təşəkkürünü bildirmiş və bu mükafatın bütün Azərbaycan xalqına verildiyini demişdir: "İkinci Qarabağ savaşında göstərdiyimiz əzmkarlıq, iradə, rəşadət bizi böyük Zəfərə gətirib çıxardı və onu da bildirməliyəm ki, bunu hər kəs görür, bizə əlavə güc verən əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarından başlayaraq son dəqiqələrinə qədər bizə göstərdiyi dəstək və mənəvi dayaqdır. Çünki biz bu dəstəyi hiss edərək, onun sözlərinə qulaq asaraq özümüzü daha da güclü hiss etdik. Çünki hörmətli Cümhurbaşqanı demişdir ki, Azərbaycan bu savaşda tək deyil. Türkiyə Azərbaycanın yanındadır və hər zaman yanında olacaqdır və bu, bizə əlavə güc verdi".

Azərbaycan bu müharibədə bütün çətinliklərə baxmayaraq, heç bir dövlətin birbaşa iştirakına Ermənistan kimi səy göstərmədi, əksinə, bu müharibənin regional faciəyə çevrilməsinin qarşısını aldı və ildırım sürəti ilə onu qısa zaman kəsiyində tarixi qələbə ilə bitirdi. Ermənistan dövləti və çoxmilyonlu erməni diasporu bu münaqişəni dünya müharibəsinə çevirmək, Türkiyə ilə Rusiyanı və digər oyunçuları birbaşa münaqişənin həllinə cəlb etmək üçün əldən-ayaqdan gedirdilər. Bu baxımdan Rusiyadakı erməni diasporunun bütün istiqamətlərdən necə hücuma keçdiyini, Rusiya KİV-də necə hay-küy qaldırdığını, yəqin ki, hamınız xatırlayırsınız. Azərbaycan Prezidentinin müdrikliyi və uzaqgörənliyi bu təhlükələrin hamısının qarşısını aldı.

Artıq İstanbulda Türkdilli Dövlətlərin Şurasının təşkilata çevrildiyi elan edildi. Özlərini müdrik sayan ermənilər belə vəziyyətdə göz qırpımında sülh müqaviləsini imzalamalı, onlara bir il ərzində təklif olunan imtiyazlardan faydalanmalı idilər. Döyüş meydanında nokauta düşən Ermənistanın yenə əvvəlki kimi sərhədlərimiz boyu təxribatlar törətməsi, Şuşa yaxınlığında Azərbaycan postuna qumbara atması heç bir məntiqə sığmır. Məğlub edilmiş ordunun hücuma keçməsi nokauta düşən boksçunun yerindən qalxıb yumruq atması kimi bir şeydir. Yəni o, yeni zərbələrdən təkrar yerə səriləcək. İndi o da baş verir, erməni təxribatları acı gülüş doğurur. İndi Paşinyan Azərbaycanın Ermənistan ərazilərinə soxulduğunu bəyan edir. Bütün dünyanı köməyə çağırır. Bir yandan mitinqlərdə Rusiya söyülür, digər tərəfdən isə Paşinyan Putinə zəng vurub yalvarır.

Ermənistanın bu provokasiyalarda ciddi məqsədləri var, hiylə işlədir və yalanların ayaq alıb yeriyəcəyinə inanır. Məqsəd dünya ictimaiyyətinə yalan məlumatları sırımaq, yenə də əzabkeş erməni surətini gündəmə gətirib şişirtməkdir. Ermənistan işğalın 30 ili ərzində vurduğu milyardlarla ziyanın bədəlini ödəməlidir. İndi zavallı əzabkeş rolunu oynamaqla elə fikirləşir ki, yaxasını qurtara biləcək.

Digər tərəfdən, ermənilər yaxşı bilirlər ki, yeni yaranan Türk Dövlətləri Təşkilatı sülhə köklənir. Ermənistan üçün təhlükə törətməyəcək. Amma məsələ burasındadır ki, genosidə məruz qalan xalq kimi Türkiyədən qaçdıqlarını bayraq edən ermənilər, əslində, dinc əhali yox, hərbi silahlı birləşmələr idilər. Bunu sübut etmək üçün kifayət qədər fakt mövcuddur. Erməni quldur dəstələri Türkiyədə, Qafqazda və hətta Orta Asiyada saysız-hesabsız vəhşilik törədiblər, şəhərləri və kəndləri yandırıb viran qoyublar. Onların cinayətlərinin sayı-hesabı yoxdur. Axı qaçqın, didərgin bunları edə bilməzdi.

İndi erməniləri qorxudan həm də bu faktlardır. Onlar başa düşürlər ki, TDT gec-tez bu məsələni qaldıracaq və bütün türkdilli dövlətlərdə törədilən erməni cinayətləri fərqli rakursdan araşdırılacaq. Bugünkü Ermənistan üçün hakimiyyətdə kimin olmasından asılı olmayaraq, sülhə, barışa getməkdənsə məzlum, zavallı xalq imicini qorumaq daha əlverişlidir. Amma onların xilas yolu sülhdən, barışdan keçir. Ya özləri xoşla gələcək, ya da zorla buna məcbur ediləcəklər.

## DAXİLİ QOŞUNLARIN BAŞ İDARƏSİNDƏ MÜŞAVİRƏ KEÇİRİLİB




Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi ilə Daxili Qoşunların Baş İdarəsində əməliyyat müşavirəsi keçirilib. Əvvəlcə nazir V.Eyvazovun təklifi ilə böyük zəfərlə başa çatmış Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müşavirəni açan nazir bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında başlanılan və möhtəşəm qələbə ilə yekunlaşan 44 günlük Vətən müharibəsində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları da qəhrəmancasına iştirak edərək adlarını Daxili İşlər Nazirliyinin tarixi salnaməsinə qızıl hərflərlə yazıblar.

Nazir qeyd edib ki, bu müharibədə qoşunların 66 hərbi qulluqçusu şəhid olub, 346 nəfəri isə yaralanıb. Göstərdikləri şücaətə görə Ali Baş Komandanın müvafiq sərəncamları ilə 4 hərbi qulluqçu "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adına layiq görülüb, 985 nəfəri isə müxtəlif orden və medallarla təltif edilib. Müharibədən sonrakı ötən bir il ərzində şəhidlərimizin xatirəsi daim ehtiramla yad edilib, qazilərimiz diqqət mərkəzində saxlanılıb. Hazırda işğaldan azad olunmuş ərazilərdə polis əməkdaşları ilə birlikdə Daxili Qoşunların hərbi qulluqçuları da xidmət aparır, təhlükəsizlik tədbirlərinin təmin olunmasında fəal iştirak edirlər.

Cənab Prezidentin respublika Daxili İşlər Nazirliyinin və onun ayrılmaz hissəsi olan Daxili Qoşunların ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizənin səmərəli təşkilində, dövlətçiliyin cinayətkar qəsdlərdən qorunmasında, insan və vətəndaş hüquq və azadlıqlarının təminində rolunu və fədakar xidmətini hər zaman yüksək qiymətləndirdiyini vurğulayan nazir, daxili işlər orqanlarının zəruri avadanlıq və texnika ilə təchizatına böyük diqqət yetirildiyini, müasir tələblərə cavab verən texniki və xüsusi vasitələrlə təmin olunduğunu, xidmət şəraitinin ilbəil daha da yaxşılaşdığını bildirib.

Prezidenti cənab İlham Əliyevin uğurla davam və inkişaf etdirməsi nəticəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının artdığını, beynəlxalq mövqelərinin möhkəmləndiyini bildirib, möhtərəm dövlət başçımızın ordu quruculuğuna, o cümlədən, Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

Hərbi qulluqçulara tapşırıq və tövsiyələrini verən nazir Vilayət Eyvazov əmin olduğunu bildirib ki, şəxsi heyət göstərilən ali diqqət və qayğıya sabitliyin, əmin-



Sonra daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov xidməti-döyüş fəaliyyətinin yekunları barədə məruzə ilə çıxış edib.

Əməliyyat müşavirəsinə yekun vuran nazir V.Eyvazov Ulu Öndərin əsasını qoyduğu inkişaf və tərəqqi strategiyasını Azərbaycan Respublikasının

amanlığın etibarlı qorunması, cinayətkarlıqla qətiyyətli mübarizə, eləcə də işğaldan azad edilmiş ərazilərdə öz nümunəvi xidmətləri ilə cavab verəcək, qarşıya qoyulan bütün vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək.

**DİN-in Mətbuat xidməti**

2 -2_Layout 1 29.11.2021 9:44 Page 1



# QƏLƏBƏNİ BƏXŞ EDƏNLƏR






## Şəhidlərimizin məzarları ziyarət olunub

Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının Beyləqan, Tərtər, Bərdə, Cəbrayıl, Yevlax, Biləsuvar, Cəlilabad, Neftçala, Sabirabad, Salyan, Xaçmaz və Qazax rayonlarında anım mərasimləri keçirilib. Şəhid hərbi qulluqçular - Mikayıl Mikayılzadənin, Tural Bayramlının, Fərid Vəliyevin, Cahangir Surxayzadənin, Elvin Abbasovun, Ceyhun Rzayevin, Təhmasib Rzayevin, Seymur Həsənlinin, Orxan Mirzəyevin, Fərid Hüseynovun, Səid Cəfərovun, Şahlar Məmmədovun, İsmayıl Məmmədovun, Anar Vəlizadənin, Fərid Seyfullayevin, İsmayıl Qəsəbovun ildönümü mərasimlərində Daxili İşlər Nazirliyinin, eləcə də Şəhər-Rayon Polis şöbələrinin şəxsi heyəti, Daxili Qoşunların hərbi qulluqçuları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mərasimlərdə şəhidlərin məzarlarına tər gül-çiçək dəstələri düzülüb, xatirələri bir dəqiqəlik sükutla yad edilib və ruhlarına dualar oxunub.

Çıxış edənlər şəhidlərimizlə bağlı xatirələrini bölüşüb, onların şərəfli həyat və döyüş yollarından söz açıblar. Tədbir iştirakçıları Vətən savaşının dünya hərb tarixinə möhürünü vurduğunu xüsusilə vurğulayıblar. Qeyd olunub ki, Vətən uğrunda canlarından keçənlərin əziz xatirələri daim qəlblərdə yaşayacaq, onların döyüş meydanında göstərdikləri şücaət gənc nəsillər üçün örnək olacaqdır.

Övladlarının əziz xatirəsini yad etdiklərinə, onlara göstərilən diqqət və qayğıya görə şəhid ailələri ölkə, eləcə də Daxili İşlər Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

**DİN-in Mətbuat xidməti**





## ŞƏHİDİMİZİN XATİRƏSİ ƏBƏDİLƏŞDİRİLİB

Vətən müharibəsində şəhid olan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçusu çavuş Elşən Quluzadənin xatirəsinə bulağın açılışı olub.

Füzuli rayonunun Qarabağ kəndində istifadəyə verilən bulağın açılış mərasimində Daxili İşlər Nazirliyinin əməkdaşları, İcra Hakimiyyətinin rəhbərliyi, Daxili Qoşunların hərbçiləri, ictimaiyyət nümayəndələri və şəhidin yaxınları iştirak ediblər.

Bulağın önünə gül-çiçək dəstələri düzən mərasim iştirakçıları şəhidimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Daha sonra şəhidin təltif olunduğu medallar ailə üzvlərinə təqdim edilib.

Tədbirdə çıxış edənlər 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusunun qazandığı tarixi Qələbədən danışıblar. Qeyd olunub ki, şəhid hərbi qulluqçu çavuş E.Quluzadə Cəbrayıl, Füzuli rayonları və Hadrut qəsəbəsi uğ-



runda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 13-də Füzuli istiqamətində gedən döyüşlər zamanı ağır yaralanaraq tibb müəssisəsinə yerləşdirilib və 2021-ci il yanvarın 21-də şəhid olub.

Elşən Quluzadə hələ sağlığında dövlət başçısının müvafiq sərəncamları ilə "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə, ölümündən sonra isə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

**Aslan Qiyaslı**
**polis baş leytenantı**

## DAXİLİ İŞLƏR NAZİRLİYİ PİYADA VƏ SÜRÜCÜLƏRƏ MÜRACİƏT EDİR

**Əziz həmvətənlər!**

Yol-nəqliyyat hadisələri üzrə tərəfimizdən aparılan təhlillər göstərir ki, cari ilin 10 ayı ərzində respublika ərazisində baş vermiş qəzaların 42, Bakı şəhəri üzrə isə 57 faizini piyadaların vurulması təşkil edir. Araşdırmalar deməyə əsas verir ki, belə hallarda bu qəzalarda sürücülərlə yanaşı, piyadaların da təqsiri olur.

Belə ki, bəzi piyadalar onların rahat və təhlükəsiz hərəkəti üçün nəzərdə tutulmuş piyada zolaqlarından, yeraltı və yerüstü piyada keçidlərindən istifadə etmirlər. Elə bunun nəticəsidir ki, piyadavurma hadisələrinin çoxu da məhz piyada keçidlərindən kənarda qeydə alınır.

Odur ki, göstərilənləri nəzərə alaraq, bir daha piyadalara səslənirik:

- küçə və yolları sizin üçün nəzərdə tutulan yerlərdən keçin;
- nizamlanan və ya nizamlanmayan piyada keçidlərindən istifadə edərkən yoldakı sürət həddini, hərəkətin intensivliyini, hava və görmə şəraitini, sürücülərin nəqliyyat vasitəsini dayandıra bilib-bilməyəcəyini nəzərə alın;
- məhdudiyyətli görünmə, duman, yağış, qar şəraitində, habelə sutkanın qaranlıq vaxtı xüsusilə diqqətli olun;
- yaxınlaşmaqda olan avtomobillərin sürətini düzgün qiymətləndirin, onların tam dayandığına, sürücülərin sizə yol verdiklərinə əmin olduqdan sonra hərəkətə başlayın;
- ictimai nəqliyyatı gözləyərkən və ya ona minib-düşərkən ehtiyatlı olun, həmçinin, qəflətən avtomobil yoluna çıxmayın;
- yolu keçərkən mobil telefondan, eləcə də ətrafdakı avtomobillərin səsini vaxtında eşitmək üçün qulaqlıqdan istifadə etməyin.

Eyni zamanda, sükan arxasında olan sürücülər də yol hərəkətinin ən müdafiəsiz iştirakçıları sayılan piyadaların təhlükəsizliyi məsələsinə ciddi yanaşmalı, artıq yola çıxmış piyadaya yol verməli, piyadaların yola çıxma ehtimalı olan ərazilərdə, xüsusilə qaranlıq vaxtı və işıqlandırılmayan yollarda daha diqqətli olmalı, təhlükəli situasiyanı düzgün qiymətləndirməyi bacarmalıdırlar. Hər bir sürücü bilməlidir ki, ani diqqətsizlik faciəvi qəzaya səbəb olur.

**Hər bir hərəkət iştirakçısına təhlükəsiz yol arzu edirik!**

## XÜSUSİ TƏYİNATLILARIN HAZIRLIĞI YOXLANILIB

Noyabr ayının 11-dən 13-dək Daxili Qoşunların 17074 saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsinin döyüş hazırlığı və döyüş təliminin vəziyyəti yoxlanılıb. Bu barədə məlumat verən daxili qoşunların baş idarəsinin qərargahında əməliyyat və döyüş hazırlığı idarəsinin döyüş hazırlığı şöbəsində baş zabit polkovnik-leytenant Tural Novruzov bildirdi ki, yoxlama müddətində komandir heyətinin idarəetmə və liderlik qabiliyyəti, şəxsi heyətin atəş, fiziki və xüsusi taktiki hazırlığının səviyyəsi dərindən öyrənilib, fövqəladə hallar zamanı fəaliyyət planına uyğun olaraq, xüsusi təyinatlı bölməyə həvalə olunan tapşırıqların yerinə yetirilməsi





üzrə qrup, yarımqrup komandirlərinin, eləcə də şəxsi heyətin bilik və bacarığına diqqət yetirilib.

Həmçinin, xüsusi təyinatlı bölmədə idarəetmənin vəziyyəti, döyüş təliminin planlaşdırılması və müvafiq tədris proqramının icrası, şəxsi heyətin xüsusi təlim atış çalışmaları üzrə praktiki atəş qabiliyyəti, fiziki hazırlığı, alpinist hazırlığı, hərbi topoqrafiya, xüsusi taktiki hazırlıq üzrə bilik və bacarığı qiymətləndirilib.

Baş zabit onu da vurğuladı ki, yoxlama zamanı təlim məqsədilə xüsusi təyinatlı bölmənin müvafiq həyəcan siqnalı ilə hazırlığı, çevikliyi, silahlanması, təchizatı, avtomobil və zirehli texnikaların hərəkət qabiliyyəti, əməliyyat yerinə marşın icrası, komandir heyətinin qərar qəbuletmə bacarığı yoxlanılıb. Müəyyən olunub ki, bölmə qarşıda duran tapşırıqların icrasına hazırdır, intizam və daxili qayda qorunub saxlanılır.

Polkovnik-leytenant T.Novruzov son olaraq qeyd etdi ki, dəstənin zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə "Dövlətə və dövlətçiliyə sadiqlik, funksional vəzifə borclarının yerinə yetirilməsində hərbi qulluqçuların məsuliyyəti" mövzusunda söhbətlər aparılıb, komandir heyəti ilə yoxlamanın yekunlarına dair xidməti müşavirə keçirilib, aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün konkret tapşırıqlar və tövsiyələr verilib.

**baş leytenant Nigar Ağayeva**

## DAXİLİ QOŞUNLARDA VAKSİNASİYA DAVAM ETDİRİLİR

Bütün dünya ölkələrində olduğu kimi, respublikamızda da əhali arasında xəstələnmə və ölüm hallarının qarşısının alınması, yoluxucu xəstəliklərin, xüsusilə COVID-19 virusunun yayılmasının məhdudlaşdırılması və aradan qaldırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın yaradılması, "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"nın qəbul edilməsi və əhali arasında planlı vaksinasiyanın aparılması bu istiqamətdə görülən əsas tədbirlərdir.







Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları arasında vaksinasiya prosesi uğurla həyata keçirilməkdədir. Bu barədə məlumat verən daxili qoşunların baş idarəsində tibb xidmətinin rəisi tibb xidməti polkovniki Alışan Musayev ilk olaraq bildirdi ki, uzun müddətdir mübarizə apardığımız koronavirus üzərində qələbə qazanmağın yeganə yolu vaksinasiya ilə immuniteti gücləndirməkdir.

Ümumiyyətlə, vaksin öldürülmüş və ya zəiflədilmiş mikroblar, onların ifraz etdiyi bəzi antigen xassəli maddələrdir. Vaksin, həmçinin, gen mühəndisliyi ilə də alına bilir. Müasir dövrdə yoluxucu xəstəliklərə, xüsusən də təhlükəli COVID-19 virusuna qarşı mübarizə metodlarından ən effektli və əlverişli üsul vaksinasiyadır.

Tibb xidməti rəisi vurğuladı ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, vaksinasiyanın səmərəliliyinin təmin edilməsi istiqamətində Daxili Qoşunların bütün hərbi hissələrində zəruri tədbirlər həyata keçirilir. Belə ki, şəxsi heyətin COVID-19 virusu əleyhinə vaksinasiya prosesində iştirakı 2020-ci ildən başlayıb və vaksinasiya tədbirlərinin 2-ci mərhələsi tamamilə başa çatdırılıb. 3-cü mərhələnin həyata keçirilməsi məqsədilə Daxili Qoşunların Ali Hərbi Məktəbində, 99713, 16075, 67987 saylı hərbi hissələrində vaksinasiya məntəqələri yaradılıb, məntəqələr tələb olunan bütün ləvazimatlarla təmin olunub, tibbi heyət təlimatlandırılıb və digər hazırlıq tədbirləri görülüb.

Tibb xidməti polkovniki A.Musayev son olaraq onu da dedi ki, şəxsi heyət arasında maarifləndirmə işi aparılır, hərbi qulluqçuların infeksiyanın yayılma təhlükəsini dərk edərək özlərinin və ailə üzvlərinin sağlamlıqlarının qorunması məqsədilə vaksinasiyada könüllü olaraq iştiraklarının vacibliyi izah olunur. Həmçinin, şəxsi gigiyena qaydalarına riayət olunması, ictimai yerlərdə qoruyucu vasitələrdən istifadə edilməsi, eləcə də sosial məsafənin qorunub saxlanılması diqqətə çatdırılır.

**kapitan Xədicə Hacızadə**

3_Layout 1 29.11.2021 11:06 Page 1



*Şəhidlərimiz*

# VƏTƏN TORPAĞINI MÜQƏDDƏS EDƏN ÜZƏRİNƏ TÖKÜLƏN ŞƏHİD QANIDIR

Vətən torpağını müqəddəs edən onun uğrunda canını qurban verən hər bir şəhidin döyüş meydanında tökülən qanıdır. Hərbi zəfər şəhidlik olmadan qazanılmır.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan 66 nəfər hərbi qulluqçusundan biri olan baş çavuş Mehdiyev Surxay Zülfi oğlunun ömür yoluna dair məlumatlar topladım. O, 1985-ci il dekabrın 7-də Ağdam rayonunun Xıdırlı kəndində anadan olub. Zülfi Mehdiyev və Rəsmiyyə Mehdiyevanın qurduğu ailənin üç övladından biri, ortancılı olan Surxayın bacısı və qardaşı var.

Mehdiyevlər ailəsi 1993-cü il iyulun 23-də Ağdam rayonu işğal olunduqdan sonra məcburi köçkün həyatını yaşamağa başlayıb. Əvvəlcə Bakıya köçüblər, sonra isə Quba rayonunda məskunlaşıblar. Doğma yurdun düşmənin əlinə keçməsinin yaratdığı sarsıntı və məcburi köçkün həyatının əziyyətləri uşaq yaşlarından Surxayın yaddaşında silinməz iz qoyub.

Qeyd edim ki, Surxayın babası Surxay Mehdiyev II Dünya müharibəsində iştirak edərək, faşistlərə qarşı vuruşub, bir sıra orden və medallara layiq görülüb. Müharibədən qayıtdıqdan sonra uzun müddət məktəb direktoru vəzifəsində çalışıb, Xıdırlı kəndinin hörmətli ağsaqqallarından biri olub.

Birinci Qarabağ müharibəsi zamanı Surxayın bəzi qohumları könüllü olaraq ön cəbhəyə, torpaqlarımızın müdafiəsinə yollanıblar, onların arasında şəhidlik zirvəsinə ucalanlar var.

Surxay Quba şəhərində yerləşən şəhid Hacıbaba Əliyev adına 1 saylı tam orta məktəbin məzunudur. Məktəb illərində idmana xüsusi maraq göstərib. İdmanın kikboksinq, karate və taekvondo növləri ilə məşğul olub, bacarıqlı idmançı kimi yetişib, müxtəlif yarışlara qatılaraq qalib yerləri tutub, diplom, fərman və medallarla mükafatlandırılıb. Bundan əlavə, o, həvəslə şahmat oynayıb. Özündən yaşca kiçik qardaşı Elmiri şahmat üzrə fəaliyyətində dəstəkləyib.

Ailəsinin verdiyi məlumata görə, Surxay xaraktercə təmkinli, təvazökar, cəsarətli, yoldaşları ilə qarşılıqlı hörmətə əsaslanan münasibətlər quran, müəllimlərinə və məşqçilərinə ehtiramla yanaşan, zərərli vərdişlərdən uzaq duran, heç kimdən öz köməyini əsirgəməyən, şəxsi ləyaqətini uca tutan, doğmalarına qayğı göstərən bir gənc idi.

2004-cü ilin oktyabr ayından 2006-cı ilin aprel ayınadək Surxay Daxili Qoşunların sıralarında müddətli həqiqi hərbi xidmət keçib. Hərbi xidmət borcunu vicdanla yerinə yetirib. 25032 saylı hərbi hissənin komandiri tərəfindən onun valideynlərinə təşəkkür məktubu göndərilib.



Hərbi xidmətdən tərxis olunduqdan sonra o, bir müddət mühafizəçi işləyib, idman fəaliyyətini davam etdirib.

2009-cu ilin sentyabr ayının 26-da Surxay Daxili Qoşunların sıralarına müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Həyatını hərbi xidmətə bağlamaq qərarı onun vətənpərvərlik əqidəsindən irəli gələn seçimi idi. Özü də vaxtilə əsgəri olduğu qoşunların tərkibində hərbi xidmətə qayıtmaq gənc üçün ruhlandırıcı amilə çevrilib.

Daxili Qoşunlarda müddətdən artıq həqiqi hərbi xidməti bütünlüklə 16073 saylı hərbi hissədə keçib. Xüsusi təyinatlı dəstədə atıcı, pulemyotçu, yarımqrup komandiri vəzifələrinə təyin edilib, "baş çavuş" hərbi rütbəsinədək yüksəlib. Nümunəvi xidməti ilə komandanlığın etimadını doğruldub. Şəxsi işində onun dəfələrlə mükafatlandırılması barədə qeydlər öz əksini tapıb. 2012-ci ilin mart ayının 10-da "Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 20 illiyi" yubiley döş nişanı, 2018-ci ilin iyun ayının 26-da isə III dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə təltif olunub.

Xüsusi təyinatlı olaraq daim özünü döyüş tapşırıqlarının yerinə yetirilməsinə hazırlayıb. Torpaqlarımızın işğaldan azad olunması uğrunda döyüşlərin başlayacağı günü səbirsizliklə gözləyib. Ən böyük arzusu Ağdama qayıtmaq, azğın düşməndən qisas almaq idi.

2012-ci ildə atasının doğma yurda qovuşmadan vəfat etməsi Surxayın qəlbindəki ağrı-acını daha da artırıb. Texnik-mexanik işləmiş zəhmətkeş atasının nəsihətlərini o, ömrünün sonuna kimi unutmayıb. Atasının ölümündən sonra ailə qayğılarının əsas ağırlığı onun üzərinə düşüb.

Vətən müharibəsi ərəfəsində Surxay və xidmət etdiyi bölmənin digər hərbi qulluqçuları xüsusi təyinatlıların təlim toplanışında iştirak ediblər. Bu təlim toplanışında onların praktiki hazırlığı digər bölmələrdən heç də geri qalmayıb.

2020-ci ilin sentyabr ayının 27-də Silahlı Qüvvələrimiz erməni işğalçılarının təxribatlarına cavab olaraq ön cəbhə boyu əks-hücuma keçib. Vətən müharibəsinin ilk günündən Daxili Qoşunların xüsusi təyinatlıları düşmənə qarşı döyüşə başlayıblar.

16073 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin hərbi qulluqçuları ön cəbhədə ayrı-ayrı qrupların tərkibinə bölünərək müxtəlif istiqamətlərdə döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb olunublar. Surxayın döyüş yolu Füzuli, Cəbrayıl və Xocavənd rayonlarının ərazilərindən keçib. Düşmənin müdafiə xəttinin yarılması, onun mövqelərinin ələ keçirilməsi, bir sıra yaşayış məntəqələri və yüksəkliklərin işğaldan azad olunması uğrunda döyüşlərdə qətiyyətlə vuruşub, avtomat silahı ilə onlarla işğalçını məhv edib. Nəzarətimizə keçən ərazilərdə mövqe tutduqları postların müdafiəsində o və silahdaşları möhkəm dayanıblar.

Vətən müharibəsi iştirakçısı, 16073 saylı hərbi hissədə xüsusi təyinatlı dəstə komandirinin tərbiyə işləri üzrə müavini kapitan Əhməd İsmayılov məlumat verdi ki, Surxay hərbi xidməti dövründə əzmkarlığı, icraçılığı, özünə qarşı tələbkarlığı ilə fərqlənib, silahdaşlarının hörmətini qazanıb. Təhkim olunan silahların xüsusiyyətlərini mükəmməl bilib, atəş və fiziki hazırlığının təkmilləşdirilməsi üçün daim öz üzərində çalışıb.

Zabit bildirdi ki, Surxay mayor Şixamir Qaflanovun (Vətən Müharibəsi Qəhrəmanı) rəhbərliyi altında erməni işğalçılarına qarşı cəsurluqla döyüşüb. Son nəfəsinədək hərbi anda, xüsusi təyinatlı məsləyinə sadiq qalıb.

Vətən müharibəsi iştirakçısı, 16073 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupunun komandiri - baş istehkamçı, müddətdən artıq həqiqi hərbi xidmətdə olan baş çavuş Kənan Kərimov danışdı ki, 2011-ci ilin oktyabr ayından Surxayla birgə xidmət ediblər. Onun xüsusi təyinatlı üçün gərəkli bütün keyfiyyətlərə malik olduğunu vurğuladı. Yaxşı nəticələrinə görə yarımqrup komandiri vəzifəsinə irəli çəkildiyini söylədi. Vətən müharibəsi zamanı Surxayın düşmənin üzərinə qorxmadan irəlilədiyini, ilk döyüşdən son döyüşədək ruh yüksəkliyi ilə vuruşduğunu dedi.



16073 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda atıcı-qumbaraatan, müddətdən artıq həqiqi hərbi xidmətdə olan baş çavuş Şəhriyar Abdullayevin də Vətən müharibəsi iştirakçısı kimi Surxay haqqında fikirlərini öyrəndim. O qeyd etdi ki, Surxay döyüşlərdə heç bir tərəddüdsüz güvənilə bilən silahdaş olub. Düşmənin mövqelərinin darmadağın edilməsində şücaətlər göstərib. Həmişə deyərdi ki, onu uşaq ikən kəndindən didərgin salan düşmənin torpağımızda izi-tozu qalmayacaqdır. Ağdam istiqamətində də döyüşməyi arzulayırdı.

67987 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda atıcı-radiotelefonçu, müddətdən artıq həqiqi hərbi xidmətdə olan çavuş Orxan Abdullayev də Vətən müharibəsinin iştirakçısıdır. Surxayı 2018-ci ildən tanıdığını, xüsusi təyinatlı dəstədə birgə xidmət etdiklərini, yarımqrup komandiri kimi onun fəaliyyətinin böyük komandirlər və rəislər tərəfindən müsbət xarakterizə olunduğunu bildirdi. Vətən müharibəsində Surxayın dəfələrlə təhlükəli anlar yaşadığını, öz iradə və dözümlülüyü ilə seçildiyini, yaralı silahdaşlarına kömək etmək üçün özünü yetirdiyini, vətənpərvərliyi ilə hamıya örnək olduğunu vurğuladı.

Döyüşçü yoldaşlarının verdikləri məlumata görə, baş çavuş S.Mehdiyev 2020-ci il oktyabrın 19-da Füzuli-Xocavənd istiqamətində (bəzi döyüşçülər bu ərazinin Cəmilli kəndinin yaxınlığında olduğunu deyirlər) gedən döyüş zamanı onun və digər hərbi qulluqçularımızın yerləşdikləri mühüm mövqenin düşmən tərəfindən müxtəlif çaplı silahlardan şiddətli atəşə tutulması nəticəsində güllə və mərmi qəlpələrindən ağır yaralanaraq şəhid olub. Həmin döyüşdə 16073 saylı hərbi hissədən mayor Ş.Qaflanov, baş çavuş Sahib Məmmədov, çavuş Sənan Ələsgərzadə də şəhidlik zirvəsinə ucalıblar.

2020-ci il oktyabrın 25-də tərtib edilən ölüm haqqında şəhadətnamədə Surxayın 19.10.2020-ci ildə Füzuli rayonu ərazisində, hərbi əməliyyat nəticəsində odlu silahla törədilmiş zədələnmələr, bud arteriyasının travması səbəbindən şəhid olduğu yazılıb.

2020-ci il oktyabrın 24-də Quba şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 15.12.2020-ci il, 24.12.2020-ci il tarixli müvafiq sərəncamlarla baş çavuş S.Mehdiyev ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Quba şəhərindəki küçələrdən biri şəhidin adını daşıyır.

"Qələbə şəhidləri", "Qarabağ Azərbaycandır! Zəfərə yolumuzdur", "44 günlük tarixi möcüzə (Qubanın Vətən müharibəsi şəhidləri)" kitablarında Surxay haqqında məlumatlar öz əksini tapıb. Şəhid haqqında bir neçə şeir yazılıb, mahnı da bəstələnib.

Surxayın dayısı oğlu Vüsal Mustafayev və xalası oğlu Əli Mustafayev də Vətən müharibəsi iştirakçılarıdır.

Mərhum hərbi qulluqçumuzun anası, qardaşı, xanımı və övladları Quba rayonunun Dəvədabanı yaşayış massivində yaşayırlar. Qızı Ayşə və oğlu Zülfi onun yadigarlarıdır. Ayşə 1-ci sinif şagirdidir, qardaşı isə 2 yaşındadır. Doğmalarının yeganə təsəllisi odur ki, Surxay düşməndən qisasını aldı, onun kimi oğulların fədakarlığı başımızı uca edən qələbəmizə yol açdı. Bu gün həm də Ağdam rayonu işğaldan qurtulub, məcburi köçkünlük həyatının acısı arxada qalıb.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

*Qazilərimiz*

# DÖYÜŞÇÜ ADI QEYRƏT VƏ MƏRDLİYİN TƏCƏSSÜMÜDÜR

Vətən müharibəsində qəhrəmancasına döyüşərək yaralanmış hərbi qulluqçularımızın həyat və döyüş yolundan bəhs edən "Qazilərimiz" rubrikasının sizlərə təqdim etdiyimiz budəfəki qəhrəmanı müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş əsgər İmanov Nihad Baxış oğludur.

Nihadı hələ 2014-cü ilin iyul ayından, vaxtilə 67987 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsində bölmə komandirinin tərbiyə işləri üzrə müavini vəzifəsində xidmət etdiyim dövrdən tanıyıram. O zaman Daxili Qoşunların sıralarına yeni çağırılmış müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının bir qismi üçün tədris prosesi məhz bu hərbi hissədə təşkil olunmuşdu. Hərbi hissə komandirinin müvafiq əmri ilə müvəqqəti yaradılmış tədris bölüyünə mən də ezam olunmuşdum. Bölük komandirinin tərbiyə işləri üzrə müavini kimi ilk fəaliyyətim təbii ki, xidmətə yeni qədəm basmış əsgərlərlə ayrı-ayrılıqda fərdi söhbət aparıb, onların mənəvi-psixoloji durumunu və hərbi xidmətə münasibətini öyrənmək olurdu. Bu baxımdan, özünü təqdim etdikdən sonra hər bir əsgərə ümumi olaraq ünvanladığım "hərbi xidmət dedikdə nə başa düşürsən" sualımı əsgər Nihad İmanov "hərbi xidmət hər bir vətənpərvər Azərbaycan gəncinin qürurla keçdiyi əsl həyat və kişilik məktəbidir" – deyə cavablandırmışdı. Doğrusu, ailəsində və oxuduğu məktəbdə hərbi vətənpərvərlik ruhunda tərbiyə alan Nihadın iftixar hissi ilə dediyi bu sözlər xatirimdə özü haqqında müsbət bir iz buraxmışdı.

Taleyin hökmü ilə bu vətənpərvər silahdaşımla ikinci dəfə nə az, nə çox, düz 6 ildən sonra Daxili Qoşunların Hərbi Qospitalında görüşdüm. Lakin bu dəfə Daxili Qoşunların "Əsgər" qəzetinin redaktoru kimi yaralı döyüşçülərimizdən müsahibə almaq üçün qospitala baş çəkərkən, Vətən müharibəsi zamanı Şuşa uğrunda gedən döyüşlərdə yaralanmış qazi hərbi qulluqçumuz Nihadla qarşılaşaraq söhbət etdim. Təbii ki, onun əsgər olarkən söylədiyi fikirləri bir daha xatırlamalı oldum...



Baş əsgər Nihad İmanov 1995-ci il iyulun 28-də Sumqayıt şəhərində anadan olub. Valideynləri əslən Siyəzən rayonunun Zarat kəndindən olsalar da, işləmək və daimi yaşamaq üçün ailəsi bu şəhərə köçdüyündən, Nihad orta təhsilini doğulub boya-başa çatdığı Sumqayıt şəhərindəki İsmət Qayıbov adına 1 saylı tam orta məktəbdə alıb.

Müddətli həqiqi hərbi xidmətinə 2014-cü ilin iyul ayında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 67987 saylı hərbi hissəsində başlayıb. Həmin ilin avqust ayında hərbi andı qəbul etdikdən sonra xidmətini 17074 saylı hərbi hissənin komendant bölüyündə davam etdirib. Uşaq yaşlarından hərbi xidmətə marağı böyük olduğundan, 2016-cı ilin yanvar ayında müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra qoşunların 99713 saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətə qalmaq qərarı verib. 2019-cu ilin yanvar ayından 12318 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsində xidmətini davam etdirən baş əsgər N.İmanov həmin ilin mart ayından xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda snayper kimi vəzifə borcunu ləyaqətlə yerinə yetirir. Xidmət etdiyi dövrdə hər zaman yüksək döyüş hazırlığı, hərbi intizamı və nümunəvi xidmətilə komandir heyətinin etimadını doğruldan qazi hərbi qulluqçumuz hərbi hissə komandanlığı tərəfindən də dəfələrlə mükafatlandırılıb.

Vətən müharibəsi başlayanda isə Nihad torpaqlarımızın işğalına son qoymaq amalı ilə döyüşlərə qatılıb, sonsuz nifrət hissi bəslədiyi erməni işğalçılarını məhv edib. Silahdaşları ilə birgə döyüş meydanında erməni vandallarına qan udduran qazimiz igidliyilə fərqlənib.

Məlumat üçün qeyd edək ki, baş əsgər N.İmanovun xidmət etdiyi və "Yarasa" şərti adını daşıyan xüsusi təyinatlı dəstə əvvəlcə Cəbrayıl, Füzuli rayonlarında mövqelərimizin müdafiəsində dayanıb, burada düşmənin diversiya-kəşfiyyat qruplarının qarşısının alınması üzrə döyüş tapşırıqlarını yerinə yetirib. Bir müddət sonra isə dəstənin şəxsi heyəti ayrı-ayrı qruplara bölünərək Şuşa istiqamətində gedən döyüşlərdə fəal iştirak edib.

25033 saylı hərbi hissənin ayrı yerləşən patrul taborunda xüsusi təyinatlı qrupun komandiri, Vətən müharibəsi iştirakçısı kapitan Bilal Məmmədov vaxtilə 12318 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin tərkibində birgə xidmət etdiyi baş əsgər N.İmanovun yüksək döyüş hazırlığı və hərbi intizamı ilə fərqlənən hərbi qulluqçulardan biri olduğunu vurğuladı. Bildirdi ki, Vətən müharibəsi zamanı onun rəhbəri olduğu qrupun tərkibində snayper kimi vuruşan Nihad Şuşa istiqamətində gedən döyüşlərdə öz sərrast atəşi ilə neçə-neçə erməni yaraqlısını cəhənnəmə vasil edib.

2020-ci ilin noyabr ayının 4-də tərkibində Nihadın da olduğu qrupun xüsusi təyinatlıları - baş çavuşlar Şahlar Məmmədov, Qüdrət Əzizov, Aydın Babayev, Elnur Məmmədov, çavuşlar Bəhlul Baloğlanov, Pərvin Qasımlı, Bəxtiyar Qasımov, Murad Bəşirov, Vasif Həsənov və əsgər Fərid Vəliyev digər qrupların cəsur döyüşçüləri ilə birgə Laçın-Şuşa yolu üzərindəki yüksəklikdə yerləşən düşmən mövqelərini darmadağın edərək, yolu nəzarətə götürüblər. Lakin bir müddət sonra düşmən döyüşçülərimizin yerləşdikləri yüksəkliyi üç tərəfdən müxtəlif növ artilleriyadan və iriçaplı silahlardan şiddətli atəşə tutub. Nəticədə dəstənin cəsur döyüşçülərindən 7 nəfər: baş leytenant Təhmasib Mustafayev, gizir Emil İsgəndərov, baş çavuşlar Ruslan Sadıqov, Şahlar Məmmədov, Elvin Abbasov, əsgərlər Tural Bayramlı və Fərid Vəliyev qəhrəmancasına şəhid olublar. Bu döyüşdə, həmçinin, qrupun xüsusi təyinatlılarından baş çavuşlar Qüdrət Əzizov, Elnur Məmmədov, çavuş Bəhlul Baloğlanov və baş əsgər Nihad İmanov yaralanaraq müxtəlif dərəcəli bədən xəsarətləri alıblar.



Baş əsgər N.İmanov yaralandığı zaman döyüşçü yoldaşı çavuş Bəxtiyar Qasımovun onu atəş altından çıxararaq, tez bir zamanda göstərdiyi ilk tibbi yardımı bu gün də minnətdarlıq hissilə xatırladığını deyir. Nihadın bildirdiyinə görə, yaralı halda belə, döyüşçü yoldaşları ilə birgə üç gün Laçın-Şuşa yolu istiqamətində azad etdikləri yüksəklikdə mövqelənərək, düşmənə sarsıdıcı zərbələr endirməklə, erməni işğalçılarının irəliləmələrinin qarşısını alıblar. Cəsur xüsusi təyinatlımız yaralanmış digər silahdaşları ilə birgə noyabrın 7-də təxliyyə olunduqlarını dedi: "Əvvəlcə Füzuli Rayon Xəstəxanasında bizə zəruri tibbi yardım göstərildi. Bir gün sonra Hacıqabul Rayon Xəstəxanasına göndərildim. Bir müddət sonra, noyabrın 12-də tam müalicə olunmağım üçün Daxili Qoşunların Hərbi Qospitalına gətirildim. Allaha çox şükürlər olsun ki, burada həkimlərimizin sayəsində sağlamlığıma qovuşmuşam və xidmətimi davam etdirirəm".

Azərbaycan Respublikası Prezidentinin 18.12.2020-ci il tarixli, 29.12.2020-ci il tarixli müvafiq sərəncamları ilə baş əsgər İmanov Nihad Baxış oğlu "Döyüşdə fərqlənməyə görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

12318 saylı hərbi hissənin "Yarasa" şərti adını daşıyan xüsusi təyinatlı dəstəsində xüsusi həmlə yarımqrupunun komandiri, Vətən müharibəsi iştirakçısı baş çavuş Aydın Babayev bu gün də birgə xidmət etdiyi döyüşçü yoldaşı baş əsgər N.İmanovu vətənpərvər hərbi qulluqçu kimi xarakterizə edərək, onun timsalında cəsur silahdaşlarının keçdikləri döyüş yolunun gənc nəslə nümunə olduğunu bildirdi.

Vətənə olan müqəddəs borcunu şərəflə yerinə yetirən qazimizə bundan sonrakı xidməti fəaliyyətində uğurlar arzulayırıq.

**mayor Anar Əhmədov**

4 - 2_Layout 1 29.11.2021 11:20 Page 1



# DÖYÜŞ HAZIRLIĞININ ARTIRILMASINA, HƏRBİ İNTİZAMIN MÖHKƏMLƏNDİRİLMƏSİNƏ DAİM DİQQƏT YETİRİLİR



25033 saylı hərbi hissənin yüksək döyüş hazırlığı və layiqli xidmətilə fərqlənən bölmələrindən biri polkovnik-leytenant İsmayıl Fərmanovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi dəstəsidir. Dəstə öz vəzifələrindən irəli gələn tapşırıqların icrasına məsuliyyətlə yanaşır və regionda ictimai qaydanın qorunub saxlanılmasında peşəkarlıq nümayiş etdirir. Şəxsi heyətin cəlb olunduğu əməliyyatlarda qarşıya qoyulan tapşırıqları yüksək səviyyədə yerinə yetirməsi bunu deməyə əsas verir.

Dəstənin uğurlu fəaliyyətindən bəhs edən komandir söylədi ki, qarşıya qoyulan xüsusi tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə daim hazır olmaq şəxsi heyətin əsas vəzifəsidir. Keçirilən təlim və məşğələlərin, həmçinin, aparılan tərbiyə işinin əsas məqsədi də budur. Bu məqsədlə, tərtib olunmuş məşğələ cədvəlinə əsasən, hərbi qulluqçularla sıra hazırlığı, fiziki hazırlıq, Daxili Qoşunların taktiki hazırlığı, atəş hazırlığı, taktiki hazırlıq, ictimai-siyasi hazırlıq məşğələləri təşkil olunur. Həmçinin, kütləvi iğtişaşların qarşısının alınması, xüsusi vasitələrdən istifadə zamanı təhlükəsizlik qaydalarına riayət olunması barədə keçirilən məşğələlər zamanı tədris olunan mövzuların hərbi qulluqçular tərəfindən dərindən mənimsənilməsinə xüsusi diqqət yetirilir: "Təlim proqramlarında nəzərdə tutulmuş tədbirlərlə yanaşı, Daxili Qoşunlar komandanlığının müvafiq tapşırıqlarına uyğun olaraq, qrup və yarımqrup komandirlərinin hazırlıqlarına ciddi fikir verilir. Şəxsi heyətin bilik səviyyəsinin, eləcə də peşə vərdişlərinin artırılması baxımından məşğələlərin böyük rolu var. Yüksək döyüş hazırlığı, möhkəm hərbi intizam və nümunəvi xidmət bizim əsas prinsipimizdir".

Polkovnik-leytenant İ.Fərmanov onu da əlavə etdi ki, çətin şəraitdə qarşıya çıxan döyüş tapşırıqlarının keyfiyyətlə icrası məqsədilə həftənin cümə günləri 2 saatdan az olmayaraq gecə təlimləri keçirilir. Təlimlər zamanı bölmə komandiri tərəfindən hərbi qulluqçuların bilikləri və praktiki vərdişləri şəxsən yoxlanılır.

Tərbiyə işi saatlarında bölmənin şəxsi heyətilə yüksək nizam-intizama nail olmaq və onun qorunub saxlanılması mövzusunda söhbətlər aparılır. Vətənə, dövlətə və dövlətçiliyə, hərbi anda sadiqlik, hərbi xidmətin çətinliklərinə dözümlülük kimi keyfiyyətlər aşılanır.

Dəstə komandiri təlim və məşğələlərdə fərqlənən, öz vəzifələrinə məsuliyyətlə yanaşan hərbi qulluqçulardan gizir Coşqun Həsənovun, baş çavuş Kamran Hüseynovun, çavuş Niyaməddin Zeynalovun və əsgər Eldəniz Məmişovun adlarını çəkdi.

İnanırıq ki, dəstənin şəxsi heyəti bundan sonra da yüksək peşəkarlıq və əzmkarlıq göstərərək qazandığı uğurları qoruyub saxlamağa müvəffəq olacaqdır.

**kapitan Xədicə Hacızadə**

# XİDMƏTİ FƏALİYYƏTİNDƏ MÜSBƏT NƏTİCƏLƏR NÜMAYİŞ ETDİRƏN BÖLMƏ



17071 saylı hərbi hissənin döyüş bayrağının, avtomobil və zirehli texnika parkının, anbarlarının mühafizə və müdafiəsini komendant bölüyü təmin edir. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan bölmənin şəxsi heyəti daim ayıq-sayıqlığı və əzmkarlığı ilə fərqlənir.

Bölük komandiri kapitan Röyal Əzizov bildirdi ki, hərbi hissənin mühafizə və müdafiəsini təşkil edən qarovulun üzərinə böyük məsuliyyət düşür. Bu baxımdan xidmətə cəlb olunan hərbi qulluqçularda bir sıra vacib xüsusiyyətlərə diqqət yetirilir. Şəxsi heyətin sağlamlığını, mənəvi-psixoloji durumunu əsas şərt kimi dəyərləndirən bölük komandiri digər lazımi keyfiyyətlərin keçirilən nəzəri məşğələlər və praktiki təlimlər zamanı aşılandığını söylədi: "Həftəlik məşğələ cədvəlinə uyğun olaraq, hərbi qulluqçularla atəş hazırlığı, fiziki hazırlıq, ictimai-siyasi hazırlıq və Daxili Qoşunların taktikası üzrə məşğələlər keçirilir. Təlim və məşğələlərdə kifayət qədər fiziki güc, eləcə də bilik əldə edən şəxsi heyət postda xidmət apararkən daha ayıq-sayıq, çevik olur, tapşırılmış obyektin mühafizəsini qüsursuz yerinə yetirir".



Xidmətə cəlb edilməzdən əvvəl müvafiq plana əsasən, bölük komandiri və onun müavinləri tərəfindən hərbi qulluqçularla təlimat keçirilir, müvafiq nizamnamənin maddələri onlara çatdırılır. Həmçinin, tərbiyə bölməsinin təlimatçı-psixoloqu leytenant Zaur Abbasov da xidmətə cəlb olunan şəxsi heyətlə fərdi qaydada söhbət aparır.

Komendant bölüyündə xidmətin uğurla təşkil olunub aparılmasında bölük komandirinin müavini baş leytenant Rəyasət Əliyevin və bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Abbas Abbasovun adlarını çəkən kapitan R.Əzizov hər iki zabitin öz sahəsi üzrə kifayət qədər bacarıqlı olduğunu diqqətə çatdırdı.

Sonda bölük komandiri vəzifələrinin icrasında fərqlənən hərbi qulluqçulardan çavuş Məzahir Mirzəyev, əsgərlər Rauf İslamzadə, Osman Möhbalızadə, Tural Kərimovun adlarını çəkməyi də unutmadı.

**baş leytenant**
**Nigar Ağayeva**

# BİŞİRİLƏN XÖRƏKLƏRİN KEYFİYYƏTİ TƏLƏBLƏRƏ TAM CAVAB VERİR



Daxili Qoşunların hərbi hissələrində hərbi qulluqçuların sağlamlığının qorunması məqsədilə sanitar-gigiyena qaydalarına əməl edilir, profilaktika və epidemiya əleyhinə tədbirlər müntəzəm olaraq həyata keçirilir. Hərbi qulluqçuların səhhətinin möhkəmləndirilməsi sağlam və keyfiyyətli qidalanmadan da asılıdır. Bu baxımdan deyə bilərik ki, şəxsi heyətin keyfiyyətli və kalorili yeməklərlə qidalanması vacibdir.

12318 saylı hərbi hissənin komandanlığı da bu məsələni daim diqqət mərkəzində saxlayır. Hazırlanan xörəklərin keyfiyyəti isə tələblərə tam cavab verir. Əlbəttə ki, bütün bu işlərdə hərbi hissənin maddi-texniki təminat xidmətlərində ərzaq xidmətinin rəisi kapitan Şahin Şirinovun əməyi böyükdür. Nümunəvi xidməti, öz sahəsində səriştəsi ilə fərqlənən hərbi qulluqçumuz xidməti fəaliyyəti zamanı daxili işlər nazirinin, daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının əmr və göstərişlərindən irəli gələn vəzifələri məsuliyyətlə yerinə yetirir.

Şəxsi heyətin qidalanmasının müvafiq rəhbər sənədlərin tələbləri əsasında aparıldığını söyləyən kapitan Ş.Şirinov qida rasionu barədə məlumat verdi. Bildirdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Gündəlik olaraq mövsümi salatlar və meyvə şirələri də qida rasionuna daxildir. Xüsusilə qış mövsümü ilə əlaqədar olaraq, qida rasionuna soğan, sarımsaq kimi faydalı tərəvəzlər əlavə olunur.

Qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması məqsədilə kurs keçmiş ixtisaslı əsgər aşpazlarla bərabər mülki işçilərin əməyindən də istifadə olunur. Kapitan Ş.Şirinov onların qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəldiklərini, qidaların tələb olunan keyfiyyətdə hazırlandığını, eyni zamanda, əsgər yeməkxanasında gigiyena qaydalarına ciddi əməl olunduğunu da diqqətə çatdırdı.

Əlavə olaraq bildirdi ki, mülki işçi aşpazlardan Səlfinaz Eyvazova, Nuriyə Səfərova, Sevinc Əliyeva, Mətanət Əhmədova, əsgər aşpazlardan isə Əlisahib İbrahimov, Qəhrəman Fətullayev, Hüseyn Hüseynov və Məhəmməd Xaritanov üzərilərinə düşən vəzifələri məsuliyyətlə və layiqincə icra edirlər.

**kapitan Xədicə Hacızadə**

*NÜMUNƏVİ XİDMƏT*

# İNZİBATİ BÖLMƏNİN RƏİSİ ÖZ İŞGÜZARLIĞI İLƏ FƏRQLƏNİR



Qəzetimizin hər sayında Daxili Qoşunların hərbi hissələrinin nümunəvi bölmələri və hərbi qulluqçularının xidməti fəaliyyətləri haqqında materiallar dərc olunur. Bu sayımızda da ənənəmizə sadiq qalaraq, 64412 saylı hərbi hissənin nizam-intizamlı hərbi qulluqçusu baş gizir Nübar Cəlilova haqqında məlumat vermək istərdik.

Baş gizir N.Cəlilova 1977-ci ilin may ayının 21-də Bakı şəhərində doğulub. Orta təhsilini Bakı şəhərinin Əhmədli qəsəbəsində yerləşən 264 nömrəli məktəbdə alıb. Orta təhsilini tamamladıqdan sonra, 1994-1999-cu illərdə Ali Tətbiqi Elmlər Kollecində "Biologiya-kimya müəllimi" ixtisası üzrə təhsilini davam etdirib. 2001-2004-cü illərdə isə Bakı Dövlət Sosial-İqtisad Kollecində "Kiçik gömrük işçisi" ixtisasına yiyələnib.

2001-ci ilin dekabr ayından Daxili Qoşunların sıralarındadır. Ötən müddət ərzində Daxili Qoşunların Baş İdarəsində müxtəlif vəzifələrdə xidmət edib. 2008-ci ilin noyabr ayından isə xidmətini 64412 saylı hərbi hissədə davam etdirir. Hazırda hərbi hissənin qərargahının inzibati bölməsinin rəisidir. 20 ilə yaxındır ki, Daxili Qoşunların sıralarında şərəflə xidmət edən qadın hərbi qulluqçumuz üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlir. İlk görünüşdən səmimiyyəti ilə diqqət cəlb edən bölmə rəisi şəxsi heyətin də dərin hörmətini qazanıb.

Hərbi qulluqçu bildirdi ki, bölmə öz işini bu sahəyə aid müvafiq əmr, sərəncam və təlimatların tələblərinə əsasən təşkil edir: "Burada hərbi hissəyə daxil olan sənədlərin qəbulu, qeydiyyatı, çoxaldılması, saxlanılması və işlərə alınması aparılır. Qeydiyyata alınmış sənədlərin kargüzarlıqda mövcudluğu gündəlik olaraq yoxlanılır, onların vaxtında icra olunmasına, kargüzarlığa qaytarılmasına və bu zaman icraçı tərəfindən müvafiq qeydlərin aparılmasına xüsusi nəzarət edilir. Bundan əlavə, xidmətlər üzrə hazırlanan aylıq hesabatların vaxtlı-vaxtında Daxili Qoşunların Baş İdarəsinə göndərilməsi də diqqət mərkəzində saxlanılır".

Bölmə rəisi onu da vurğuladı ki, hər rüb ərzində bir dəfədən az olmayaraq hərbi qulluqçuların şəxsi vəsiqələri yoxlanılır, orada göstərilən məlumatların dəyişib-dəyişmədiyi araşdırılır və yoxlamaların nəticəsi müvafiq nəzarət jurnalına qeyd olunur. Bölmə hərbi qulluqçuların yerdəyişmələri, onlara hərbi rütbələrin verilməsi və təltif olunmaları, həmçinin, hərbi qulluqçuların ehtiyata buraxılmaları barədə sənədlərin vaxtında hazırlanmasını təmin edir.

Baş gizir N.Cəlilova dedi ki, bütün bu vəzifələrin uğurla yerinə yetirilməsində bölmənin hər bir hərbi qulluqçusunun böyük əməyi var: "İstənilən sahədə uğur qazanmaq üçün bütün kollektivin səylə çalışması vacibdir. Bu baxımdan hərbi hissənin qərargahının məsul icraçısı (şəxsi heyətin uçotu üzrə) gizir Lalə Əliyeva, qərargahın məsul icraçı-texniki (kargüzarlıq üzrə) gizir Fidan Məmmədova və qərargahın kargüzarı (kargüzarlıq üzrə) çavuş Aytac Rüstəmli qarşılarına qoyulan tapşırıqların öhdəsindən bacarıqla gəlirlər. Bölmənin hərbi qulluqçularının nizam-intizamı, xidmətə məsuliyyətli münasibəti də təqdirəlayiqdir. Düşünürəm ki, uğurlu xidmətin əsası budur".

**kapitan Xədicə Hacızadə**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Türkiyə Filippinə T129 ATAK helikopteri ixrac edir

Türkiyənin TUSAŞ şirkəti tərəfindən Filippin Silahlı Qüvvələrinin sifarişi əsasında istehsal edilən T129 ATAK helikopterinin ilk partiyası bu ilin dekabr ayında sifarişçiyə təhvil veriləcək.



"Poliqon" xəbər verir ki, bu barədə Filippin Hərbi Hava Qüvvələrinin komandanı sosial media hesabında bildirib.

Sazişə əsasən, TUSAŞ şirkəti 12 ədəd – hər partiyada 6 ədəd olmaqla 2 partiya T129 ATAK helikopterinin Filippin ordusuna təhvil veriləcəyi barədə razılığa gəlib. Filippin 6 ədəd T129 hücum helikopteri üçün TUSAŞ şirkətinə 270 milyon ABŞ dolları ödəyəcək.

### Serbiya Rusiyadan "Kornet" TƏİRK alacaq

Serbiya cari ilin sonuna qədər Rusiyadan "Kornet" tank əleyhinə idarə olunan raket kompleksləri (TƏİRK) alacaq.

"Poliqon"un məlumatına görə, bu barədə Serbiya Prezidenti Aleksandr Vuçiç Soçidə Rusiya Prezidenti Vladimir Putinlə görüşündən sonra bildirib.



Prezident Aleksandr Vuçiç deyib ki, Serbiya Rusiyanın S-400 zenit-raket sistemlərinə də sahib olmaq istəyir.

Qeyd edək ki, Serbiya Avropada Rusiyanın silah və hərbi texnikasının ən böyük idxalçısıdır.

## Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı və Veteranlar şurası istefada olan **polkovnik-leytenant Təranə Məmmədovanın** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların komandanlığı gizir Günel İsgəndərovaya **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16073 saylı hərbi hissənin komandanlığı mayor Samir Məmmədova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000